Hörmətli həmkarlar!

Bildiyiniz kimi 2008-ci ilin mart ayında qüvvəyə minən "**Azərbaycan Respublikasının Sığorta fəaliyyəti haqqında Qanuna"** əsasən sığorta şirkətlərində Daxili Audit Xidmətinin yaradılması zərurəti ortaya çıxmışdır. Bununla əlaqədar olaraq **Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin** dəstəyi ilə və **MAK şirkətlər qrupunun** operatorluğu ilə **"Sığorta şirkətində daxili audit xidmətinin yaradılması"** mövzusunda treninq proqramı hazırlanmışdır. Bu proqram əsasında top menecerlər, təftiş komissiyasının üzvləri, risk menecment əməkdaşları və daxili nəzarətçilər üçün kurs keçirilməsi nəzərdə tutulmuşdur. Treninqin əsas məqsədi, praktiki fəaliyyətdə olan menecment sistemini daxili nəzarət sistemi ilə birlikdə ətraflı nəzərdən keçirməkdən ibarətdir. Bu sistemi istifadə etməklə maliyyə vəsaitlərinin və şirkətin aktivlərinin düzgün idarə olunmasına nail olmaq mümkündür.

Bu kursun keçirilməsi üzrə layihə 2009-2010-cu illərdə iki dəfə müvəffəqiyyətlə həyata keçirilmişdir. İştirakçıların məşğulluğunu nəzərə alaraq treninqin həftənin şənbə günlərində keçirilməsi məqsədəuyğun hesab edilmiş və iştirakçılar üçün bütün lazımi şərait yaradılmışdır. Treninqin keçirildiyi müddət ərzində iştirakçılar verilən materialları tam mənimsəmiş və treninqin sonunda bütün iştirakçılar müvəffəqiyyətlə imtahan verərək **MAK şirkətlər qrupunun** sertifikatını almışlar.

Qeyd etmək lazımdır ki, treninq proqramının faydalılığı, eləcə də kursun keçirilməsi zamanı əldə olunan hərtərəfli biliklərin praktik cəhətdən vacibliyi barədə Şirkətimizin və onun kursu keçirən ekspertlərinin ünvanına iştirakçılar tərəfindən səslənən müsbət rəylər daxil olmaqda davam edir.

**MAK şirkətlər qrupu** sığorta şirkətlərinin əməkdaşlarının arzu və istəklərini nəzərə alaraq bu kursun təkrarən təşkili barədə qərar qəbul etmişdir. Belə ki, 2011-ci ilin aprel ayından başlayaraq **"Sığorta şirkətində daxili audit xidmətinin yaradılması"** mövzusunda kurs keçirilməsi nəzərdə tutulur. Məlumat üçün kursun planı məktuba əlavə olunur.

Xahiş edirik Sizin şirkətinizin müvafiq strukturlarında çalışan əməkdaşların bu kursda iştirakı ilə əlaqədar qərarınız barədə bizə məlumat verəsiniz.

**Hörmətlə,**
**Zamin Hüseynov**
**MAK şirkətlər qrupunun rəhbəri:**